# Tolstoy, kilsə və senzura

**Rus ədəbiyyatında bir çox tanınmış simalar, hətta klassiklər də öz zamanlarında senzuraya məruz qalmışlar. Əsərləri çap olunmadan redaksiyalardan geri qayıtmış, üstündən xətt çəkilmişdir. Rusiya ədəbiyyatında Anna Axmatova, Mariya Svetayeva, Aleksandr Sergeyeviç Puşkin, Vladimir Mayakovski və başqaları yaradıcılıqlarında senzurayla üzləşməli olmuşlar.**



Maraqlısı burasıdır ki, Rusiya ədəbiyyatı təkcə ictimai dairələrin və ədəbi tənqidçilərin deyil, bununla yanaşı dini dairələrin də güclü təzyiqinə məruz qalmışdır. Kilsə və din müdafiəçilərindən mitropolit (pravoslav keşişlərinin yüksək rütbəsi) Filaret Benkendorfa etdiyi şikayət faktı - A.S.Puşkinin ”Yevgeni Onegin” əsərində müqəddəsləri təhqir etməsi faktı lap lətifəyə bənzəyir: ”...xaçların üstündəki dolaşa (quş) dəstəsi...” Bununla bağlı çağırılmış senzorda məsələyə cavab olaraq bildirilmişdir ki, dolaşalar, həqiqətən də, Moskva kilsələrinin üstündəki xaçlarda oturur. Və bu işdə şair və ya senzor yox, buna icazə verən polismeyster (çar Rusiyasında və bəzi dövlətlərdə şəhər polisi rəisi) günahkardır.

XIX əsrin sonlarında dini senzura Lev Nikolayeviç Tolstoyun rəsmi, bürokratik dini kəskin tənqid edən bir sıra əsərlərinin üzərinə qadağa qoymuşdur.

Tolstoyun dünyaca tanınması ona yaxşı etsə də, lakin rus pravoslav kilsəsinin tənqidləri onu sarsıdır, həddindən artıq kədərləndirirdi.

Tolstoyun provaslavlığa qarşı ifşaedici çıxışları kilsə iyerarxlarını (kahinlərini) qəzəbləndirir, özünə qarşı onların nifrətini qazanırdı. İş bu yerə qədər gəlib çatmışdı ki, Tolstoyun 80 illik yubileyi ərəfəsində kilsə nümayəndələri onu kilsənin düşməni adlandıraraq, bunun qeyd olunmamasına görə hökumətə müraciət etmişdilər. Keşiş İoann Kronştadtski (indi onu pravoslav kilsəsinin ”sütunu” adlandırırlar) Tolstoy inqilabının əleyhinə xüsusi bir dua da hazırlamışdı. Dua beləydi:

”Ay Allah, öz kilsən xatirinə, insanlar naminə Rusiyaya əmin-amanlıq, sülh, asayiş verr. İnqilabı və üsyanları sakitləşdir. Yer üzündən sənin ən pis düşmənin olan kafir Lev Tolstoyu və onun tərəfdaşlarını məhv et”.

1900-cü ilin martında rus dini dairələri xalqın Tolstoyun ölümlə nəticələnə biləcək xəstəliyilə bağlı yayılmış şayiələrə görə həyəcan keçirirdi. Kilsə nümayəndələri düşünürdülər ki, (bu cür düşünməklə səhv etməmişdilər!) yazıçının ölümü xalqın böyük kədərinə səbəb olaraq, mütləqiyyət və kilsə əleyhinə siyasi etirazlara çevrilə bilər. 1900-cü ilin martında sinod (Pravoslav mənsəbinin baş idarəsi) bütün yeparxiyalara göstəriş yaymışdı. Təmimnamədə deyilirdi: ”...qraf Tolstoyun vəfatı onun saysız-hesabsız sevənlərinin kilsəyə keşişlərin cənazə duası - matəm imlası keçirməsi üçün müraciət etməsinə səbəb ola bilər. Lakin Lev Tolstoy əsərlərinin bir çoxunda pravoslav xristian kilsəsinə olan nifrətini açıq-aşkar göstərmiş, bunu gizlətməmişdir. Üç sifətdə olan vahid Allahı o qəbul etmir, ikinicisi də müqəddəs üçlüyü - Allahın oğullarını adi insan adlandırır, Allahın sözlərinə şübhəylə yanaşır, ”İncil”in müqəddəs mətnini özünəuyğun tərzdə dəyişərək izah edir, müqəddəs kilsəni insan qurması adlandıraraq məzəmmət edir, pravoslav kilsəsinin adət-ənənələrini inkar edir... Buna görə də öldüyü zamana qədər tövbə edib, kilsəylə barışmasa qraf Lev Tolstoy üçün cənazə duası oxunmayacaqdır”. Lakin bu, kilsə nümayəndələrinə azlıq etdi. 1901-ci ilin 20-22 fevralında sinod Tolstoyun kilsədən ayrılması haqqında qərar qəbul edir.

Kilsə qanunlarına görə, bu qərara əsasən dahi yazıçı dini ibadət zamanı bütün kilsələrin kürsülərindən mürtəd elan olunaraq, lənətlənməliydi. Bu sataşma, ələ salınma Rusiyanın öncüllərinə, məşhur insanlarına pis təsir etmiş və qıcıqlandırmışdı. Vladimir İliç Lenin yazıdı: ”Müqəddəs senod Lev Nikolayeviçi kilsədən uzaqlaşdırdı. Daha da yaxşı. Xalqın keşiş cübbəli məmurlarıyla, jandarmlarla, yəhudi qırğınlarını dəstəkləyən cəlladlarla, zalımlarla və çar quldur dəstələriylə haqq-hesab çəkdiyi zamanda bu qəhrəmanlığı onun xeyrinə olar”.

Sinodun bu qərarı Tolstoyu ayaqlamağın, əzməyin ilk addımları idi.

Sinodun bu qızışdırıcı, fitnəkar xarakterli əməli yazıçının sinoda cavabında görünürdü. Tolstoy yazırdı: ”Sinodun qərarında bir çox çatışmazlıqlar var. O, qanunsuzdur və ya qəsdən olaraq ikibaşlı hazırlanıb. Həqiqətə uyğun deyil, əsasızdır, bundan başqa da özündə yalan, şər birləşdirib, pis hisslərə və əməllərə yol açır... O... savadsız, məntiqsiz adamlarda hikkə və qəzəbə səbəb olur. Bu, onların mənə yazdıqları məktublarında özünü büruzə verir: ”Sən artıq mürtədsən, lənətlənmisən. Buna görə də ölümünlə əbədi əzablara məruz qalacaq və it kimi öləcəksən, ey qoca iblis”, - yazır onlardan biri. Digəri isə hökuməti məni monasrta qapamadığına görə qınayır və məktubda məni təhqir edir.

”Sinodun təyininə cavab”da həmçinin Tolstoy yazır ki, guya mən bütün ayinləri inkar edirəm. Bu tamamilə doğru və haqlıdır. Bütün ayinlərin, məxfiliklərin rəzil, alçaq və kobud olduğunu hesab edirəm... cadugərlik, sehr hesab edirəm... Günahların tövbə edərək mütəmadi bağışlanmasında açıq-aşkar riyakarlıq və yalanlar görürəm... Bütün ayinlərdə, ikonalarda, dualarda, ovsunlarda cadugərliyin kobud fəndlərini duyuram...”

Kilsə nümayəndələrinin Tolstaya bəslədiyi azğın, qəddar nifrətə hökumət də şərik idi. Kübar və kilsə dairələrinin senzorları jandarmlarla birlikdə Tolstoyun əsərlərinin xalq içində yayılmağının qarşısını hər vəchlə almağa çalışdırdılar. Ən çox da bu qadağa mütləqiyyət və provaslavçılığa qarşı tənqidlər olan əsərlərə şamil edilirdi. Yüzlərlə arxiv sənədi senzor və jandarmların qara-qara işlərini təsdiqləyir.

Beləliklə 27 iyul 1907-ci ildə Peterburqun çap işləri üzrə komitəsi Tolstoy əsərlərinin tam toplusunun üçüncü cildi üzərinə qadağa qoymuşdur. Buna səbəb həmin topluya daxil olan ”Kilsə və dövlət” əsəri olmuşdur. 29 sentyabr 1909-cu ildə Moskvanın çap işlər üzrə komitəsi ”İman nədir” əsərinə də qadağa qoydu. Buna bəhanə olaraq adı çəkilən əsərdə Tolstoyun xristian kilsəsinin müqəddəs ayinlərini inkar etməsini göstərirdilər.

Dahi rus yazıçısı öləndə isə çar hökuməti və sinod bütün Rusiya imperiyası boyu bütün vilayətlərə sərəncam göndərək bildirmişdi ki, Lev Nikolayeviç Tolstoyun adını kitabxana, məktəb, xəstəxana, uşaq evlərinə verilməsi qəti qadağandır.

1910-cu ilin soyuq noyabr ayında Tolstoy 82 yaşında dünyasını dəyişdi. Dəfn mərasimində çox az adam toplaşmışdı. Cəmi üç-dörd min adam! Bütün Rusiya üçün bu rəqəm çox az idi. Amma Tolstoyun dəfni ümumrusiya səviyyəsində olmamasından ötrü əllərindən gələni etmişdilər. Hər şeydən əvvəl Tolstoyun ölümündən üç gün keçməsinə baxmayaraq, onun dəfninə gedib çıxmaq çox müşkül bir iş olmuşdu. Düzü, Tolstoy özü də tez dəfn olunmağı vəsiyyət etmişdi. Bundan başqa Moskvadan təcili qatarların çıxışına qadağa qoyulmuşdu. Və bu haqda məlumatı nədənsə vaxtında yox, axşam vermişdilər. Minlərlə dəfnə yetişmək istəyən insan vağzalda qalmışdı. Camaat başqa yollarla - Ryazan, Brestk yolları ilə də olsa gələ bilməyib, yoldan geri qayıtmışdı... Demək olar ki, ancaq ətraf kəndlərin, Tulanın sakinləri və ancaq maşınla gəlmək imkanı olan moskvalılar dəfnə çatmışdılar.

Lev Tolstoyun dəfn mərasimi olduqca sadə keçmişdi. Lakin bu sadələyin özündə başqa dəfn mərasimlərindəki minlərlə adamın səs-küy və həyəcanından daha güclü nəsə vardı. Sanki kimsə bütün orda olanlara özlərini necə aparmaqları barədə təlimat vermişdi. Və Tolstoyun meşədə, ”Qraf sifarişi” guşəsində, üç min-üç min beş yüz adam əhatəsində keçən dəfni bütün senzura və qadağalara rəğmən Tolstoya layiq şəkildə, daha doğrusu Rusiyaya layiq şəkildə başa çatmışdı. İnsanlar onun cənazəsi qarşısında baş əyir, ondan ölümündən sonsuz kədər içində göz yaşlarına qərq olurdular. Bütün bu ağır qadağalara, baxmayaraq, Lev Nikolayeviçin adı bütün xalqın ürəyinə yazılmışdı.

Və sonda... Tolstoy, əlbəttə ki, ateist deyildi. V.İ.Leninin qeyd etdiyi kimi onda ”bürokrat kilsəylə yeni, təmiz dinin xütbəsi ilə mübarizəsi idi”.

**İnternet materialları əsasında hazırladı: Xanım AYDIN**